*UOT 37.01*

***Sahib Əmirxan oğlu Məmmədov***
*Azərbaycan Respublikası*
*Mingəçevir Dövlət Universitetinin dosenti,*
*pedaqogika üzrə fəlsəfə doktoru*
*https://orcid.org/0000-0002-7064-726X*
*E-mail: sahib.mammadov@mdu.edu.az*

***İlahə Yasin qızı Əmrahzadə***
*Mingəçevir Dövlət Universitetinin müəllimi*
*https://orcid.org/0009-0004-9491-6315*
*E-mail: ilahe.emrahzade@mdu.edu.az*

*https://doi.org/10.69682/arti.2026.93(3).25-28*

# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ ŞAGİRDLƏRİN PSİXOLOJİ SAĞLAMLIĞI VƏ FƏRDİ TƏHSİL MƏSƏLƏLƏRİ

***Sahib Amirkhan Mammadov***
*associate professor at Mingachevir State University,*
*doctor of philosophy in pedagogy*

***Ilaha Yasin Amrahzade***
*lecturer at Mingachevir State University*

# PSYCHOLOGICAL HEALTH OF STUDENTS AND ISSUES OF INDIVIDUAL EDUCATION IN GENERAL EDUCATION SCHOOLS

***Сахиб Амирхан оглу Мамедов***
*доцент Мингечевирского Государственного Университета,*
*доктор философии по педагогике*

***Илаха Ясин гызы Амрахзаде***
*преподаватель Мингячевирского Государственного Университета*

# ПСИХОЛОГИЧЕСКОЕ ЗДОРОВЬЕ УЧАЩИХСЯ И ВОПРОСЫ ИНДИВИДУАЛЬНОГО ОБУЧЕНИЯ В ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛАХ

**Xülasə.** Araşdırmada müstəqillik dövründə Azərbaycanın təhsil sistemində baş verən paradiqma dəyişiklikləri fonunda humanistləşmə və demokratikləşmə prinsiplərinin tətbiqi məsələləri fundamental şəkildə tədqiq edilir. Müasir dövrdə təhsil artıq sadəcə bilik ötürücüsü funksiyasını deyil, şəxsiyyətin özünüreallaşdırması üçün əlverişli psixoloji ekosistemin qurulması vəzifəsini öz üzərinə götürür. Pedaqoji fəaliyyətin səmərəliliyi, müəllimin bu fərdi fərqləri nə dərəcədə nəzərə alması və hər bir uşaqla onun fərdi psixoloji dilində ünsiyyət qura bilməsi ilə ölçülür. Araşdırmanın əsas hissələrindən biri yeniyetməlik dövründə ortaya çıxan sosiogen aqressiya və deviant davranışın köklərinin araşdırılmasıdır. Bu araşdırma müasir pedaqoq və psixoloqlar üçün strateji bir yol xəritəsi təklif edir: şagirdin intellektual inkişafı ilə onun emosional-sosial rifahı arasında balans qorunmalıdır. Çətin uşaqların vaxtında aşkarlanması, onların potensialının reabilitasiyası və inklüziv yanaşma ilə cəmiyyətə inteqrasiyası təlimin prioritet hədəfi kimi müəyyənləşdirilir. Humanist təhsil mühiti yalnız akademik uğuru deyil, həm də ləyaqətli, mənəvi baxımdan sağlam və harmonik şəxsiyyətin formalaşmasını təmin edən yeganə yoldur.

***Açar sözlər:*** *təhsilin humanistləşdirilməsi, fərdi-psixoloji xüsusiyyətlər, temperament tipləri, yeniyetmə aqressivliyi, deviant davranış, müəllim-şagird münasibətləri, fərdi təhsil ehtiyacları, sosiogen amillər*

**Abstract.** The study fundamentally examines the implementation of the principles of humanization and democratization in the education system of Azerbaijan within the context of paradigm shifts during the period of independence. In the contemporary era, education no longer serves solely as a means of knowledge transmission; it also assumes the role of creating a supportive psychological ecosystem for individual self-realization. The effectiveness of pedagogical activity is determined by the extent to which teachers consider individual differences and are able to communicate with each learner through their unique psychological framework. One of the central aspects of the study is the investigation of the roots of sociogenic aggression and deviant behavior emerging during adolescence. The research proposes a strategic framework for modern educators and psychologists, emphasizing the importance of maintaining a balance between students' intellectual development and their emotional and social well-being. The early identification of "at-risk" children, the rehabilitation of their potential, and their integration into society through inclusive approaches are defined as key priorities of the educational process. A humanistic educational environment is presented as the primary means of fostering not only academic success but also morally sound and harmoniously developed individuals.

***Keywords:*** *humanization of education, individual psychological characteristics, temperament types, adolescent aggression, deviant behavior, teacher–student relationships, individual educational needs, sociogenic factors*

**Аннотация.** В исследовании фундаментально рассматриваются вопросы реализации принципов гуманизации и демократизации в системе образования Азербайджана в условиях парадигмальных изменений периода независимости. В современную эпоху образование выполняет не только функцию передачи знаний, но и берет на себя задачу формирования благоприятной психологической экосистемы для самореализации личности. Эффективность педагогической деятельности определяется тем, насколько учитель учитывает индивидуальные особенности обучающихся и способен выстраивать взаимодействие с каждым учеником на уровне его индивидуального психологического восприятия. Одним из ключевых аспектов исследования является анализ истоков социогенной агрессии и девиантного поведения, проявляющихся в подростковом возрасте. Работа предлагает стратегическую модель для современных педагогов и психологов, основанную на необходимости поддержания баланса между интеллектуальным развитием учащихся и их эмоционально-социальным благополучием. Ранняя диагностика «трудных» детей, реабилитация их потенциала и их интеграция в общество на основе инклюзивного подхода рассматриваются как приоритетные задачи образовательного процесса. Гуманистическая образовательная среда выступает важным фактором формирования не только академически успешной, но и нравственно зрелой, гармонично развитой личности.

***Ключевые слова:*** *гуманизация образования, индивидуально-психологические особенности, типы темперамента, подростковая агрессия, девиантное поведение, отношения «учитель–ученик», индивидуальные образовательные потребности, социогенные факторы*

Respublikamızın müstəqillik əldə edilməsindən sonra bütün sahələrdə olduğu kimi, təhsil sistemində də əsaslı islahatların aparılması zərurəti meydana çıxdı. Bu islahatların ana xəttini təhsilin demokratikləşdirilməsi və humanistləşdirilməsi təşkil edir. Təhsilin humanistləşdirilməsi prinsipi həm dövlət sənənədlərində, həm də pedaqoq və psixoloqların əsərlərində zəruri şərt kimi birmənalı şəkildə irəli sürülmüşdür.

Demək olar ki, bütün psixologiya məktəbləri, xüsusilə humanist psixologiyanın nümayəndələri O.Olport, A.Maslou, K.Locers və b. hesab edirlər ki, cəmiyyətin yenidən qurulmasının, dəyişməsinin əsas istiqamətlərindən biri dünyaya gələn hər bir uşağa həyatı boyu öz qabiliyyətlərini mümkün qədər inkişaf etdirməyə və onları cəmiyyətin inkişafı və öz xeyri reallaşdırmağa imkan yaradılmasından ibarət olmalıdır. Humanist psixologiyanın diqqət mərkəzində öz potensialını şəxsi və ictimai yüksəliş üçün gerçəkləşdirən harmonik və səriştəli şəxsiyyətin tərbiyəsi, təhsili və inkişafı durar. Bu gün təhsil sistemində həyata keçirilən təhsilin humanistləşdirilməsi də ilk növbədə şagirdin təlim prosesində inkişaf etdirilməsini, özünü bir şəxsiyyət kimi təsdiq etməsi üçün əlverişli şəraitin yaradılmasını nəzərdə tutur. Bu vəzifələrin həyata keçirilməsi üçün biz pedaqoq və psixoloqlar ilk növbədə şagirdlərin psixoloji xüsusiyyətlərinin və fərdi təhsil ehtiyaclarının müəyyənləşdirilməsi məsələlərini diqqət mərkəzində saxlamalıyıq.

Ayrı-ayrı yaş dövrünün özünəməxsus xüsusiyyətləri olduğu kimi, ayrı-ayrı uşağında yaşıdından, həmçinin oğlanı qızdan fərqləndirən

xüsusiyyətlər olur. Bu xüsusiyyətləri nəzərə almadan təlim-tərbiyə prosesində yüksək nəticələr qazanmaq mümkün deyil. Bəzən müəllimlər şagirdləri “açıq kitaba” bənzədirlər və elə zənn edirlər ki, onu öyrənmək asan işdir. Əslində isə hər bir uşaq böyük psixoloq alim Ş.Ağayevin təbirincə desək, “özlüyündə tilsimli qaladır”, “sirli aləmdir”, “ xüsusi açar tələb edən nadir qıfıldır”. Hansı cinsə, yaş dövrünə, temperamentə və sinir sistemi tipinə malik olmasından, hansı mikro və makro mühitdə böyüməsindən, həyatında nə kimi tərbiyəvi qüvvələrin, şəxsi və kollektivlərin təsirinə məruz qaldığından, fitrətindəki qabiliyyətlərdən və s. amillərdən asılı olaraq uşaqlar bir-birindən kəskin surətdə fərqlənirlər. Bunun nəticəsidir ki, eyni yaş qrupunda, eyni ailədə, eyni sinifdə, eyni kollektivdə, hətta bütün dünyada elə iki uşaq tapılmaz ki, onların duyma və qavrama qabiliyyəti, marağı, düşüncə tərzi, hisslərinin dərinliyi, xarakter əlamətləri, təbiətdən, varisdən keçmiş quruluş və funksiya fondu tam üst-üstə düşsün. Ona görə də deyə bilərik ki, nə qədər insan var bir o qədər fərdi xüsusiyyətlər var. Şəxsiyyətin fərdi-psixoloji xüsusiyyətlərindən hər birinin fəaliyyət prosesində öz yeri, öz vəzifəsi vardır.

Psixoloqlar insanları, o cümlədən uşaqlar da bura daxil olmaqla, fərdi xüsusiyyətlərinə görə dörd temperament tipinə bölmüşlər: xolerik, sanqvinik, fleqmatik, melanxolik. Fərdi fərqlər bu tiplərin xarakterindən irəli gəlir ki, müəllim və tərbiyəçilər bunu yaxşı bilməlidirlər.

Müəllim və tərbiyəçilər uzun müddətli müşahidələr nəticəsində bu tipləri öyrənməli və buna müvafiq olaraq hərəkət etməlidirlər. Tərbiyə işini məhz bu şəkildə quran müəllim və sinif rəhbərləri sinifdəki uşaqların ailələrini və özlərini dərindən tanıyırlar, şagirdlərdən kimin utancaq və ya şıltaq, kimin diribaş və ya süst, kimin hövsələli və ya hövsələsiz, kimin coşğun və ya sakit olduğunu, kollektivin həyatı ilə hansı uşağın nə dərəcədə bağlandığını, kollektivin fəaliyyətində kimin necə iştirak etdiyini, eləcə də kimə sözlə, kimə sərt baxışla, kimə mənalı təbəssümlə, kimə ciddi tənbehlə təsir göstərməyin daha yaxşı səmərə verəcəyini dəqiq bilir və buna görə də lazım gələndə hər kəslə “öz dilində ”danışmağı bacarırlar. Nəticədə onların rəhbərlik etdikləri siniflərdəki hər bir uşaq mənsub olduğu kollektivin ləyaqətli üzvü səviyyəsinə yüksələ bilir.

Müəllim-şagird münasibətləri müasir şəraitdə xüsusi məzmun və əhəmiyyət kəsb edir. Bu münasibətlər təkcə müəllimin bilik verməsi, öyrətməsi, şagirdlərin isə bu bilikləri mənimsəməsi, öyrənməsi prosesindən ibarət olmayıb, böyük tərbiyəvi əhəmiyyət kəsb etməli, şagird şəxsiyyətinin inkişafına, onlarda yüksək əxlaqi keyfiyyətlərin yaranması və formalaşmasına xidmət etməlidir. Biz pedaqoqlar dərs dediyimiz şagirdlərin psixoloji və fərdi xüsusiyyətlərini yetərincə qiymətləndirmədiyimizdən istər-istəməz yetirmələrimiz arasında “çətin” tərbiyə olunan olunan uşaqlarla tez-tez üzləşirik. Məktəbdə intizamın pozulması, davranış qaydalarına əməl edilməməsi uşaq cinayətkarlığına gətirib çıxarır.

Pedaqoji nəzarətdən kənarda qalan “çətin” tərbiyə olunanlar bəzən mikromitin mənfi təsiri altına düşür. Böyüklərdə olduğu kimi, uşaqlar arasında da intizamsızlıq və cinayətkarlığın əksər hallarda spirtli içkilərdən istifadə edilməsi ilə əlaqədardır. Bu da adətən, ya uşağın ailə şəraiti ilə, ya da onun düşdüyü mikromühitlə əlaqədardır. Hüquq qaydalarını pozmuş yetkinlik yaşına çatmayanların 30-40% valideynlərin və ailənin digər yaşlı üzvlərinin sərxoşluğu, davadalaşı və qeyri-əxlaqi davranışının qurbanı olmuşlar. Yetkinlik yaşına çatmamış olan cinayətkarların hər beş nəfərindən birinin ailəsində əvvəllər məhkumluğa cəlb edilmiş və yaxud mütəmadi olaraq spirtli içkilərdən sui istifadə edən şəxslərin olduğu qeyd edilmişdir.

Yuxarıda qeyd edilən məqamlara istinad edərək deyə bilərik ki, “çətin” tərbiyə edilən uşaqların əksəriyyətinin bu duruma düşməsinin əsas səbəbkarları, məhz valideynlər və onların yaşayış tərzləridir. Tarix boyu aqressivlik və zorakılıq bütün cəmiyyətlərin aktual problemlərindən biri olmuş və müasir dövrdə də vacib olan bir məsələ kimi diqqət mərkəzindədir. Cəmiyyətdə baş verən cinayət halları, müharibələr, sosial-iqtisadi şəraitin çətinliyi, insan münasibətlərində ortaya çıxan uyğunsuzluq və s. bu kimi məsələlər göstərir ki, aqressivlik insanların psixoloji xüsusiyyətlərinin əsas amillərindən biri kimi özünü həmişə neqativyöndə təzahür etdirir.

Son zamanlar qəddarlıqla müşayiət olunan zorakılıq hadisələrinin, münaqişələrin, vandalizmin dinamik artımı bütün dünyada narahatlıq doğurur. Aparılmış tədqiqatlarda, müşahidələrdə aqressivliyin artma səbəbləri kimi medianın fəaliyyətini, televiziyanı, internet resurslarını, mə-

nəvi dəyərlərin deformasiyaya uğramasını və ən başlıcası da yetişməkdə olan gənc nəslin psixoloji xüsusiyyətlərini və fərdi təhsil ehtiyaclarını və s. göstərmək olar ki, bütün bunlar cəmiyyətin sabitliyini pozur, insan amilini hər hansı gözlənilən təhlükə qarşısında qoyur. Bütün bu neqativ təsirlər keçid yaş dövrü olan yeniyetməlik yaş dövründə daha qabarıq əks olunur.

Faktlar göstərir ki, müasir dövrdə yeniyetmələr arasında aqressivliyin artması cəmiyyətin aktual problemlərindən birinə çevrilmiş və yeniyetmə aqressivliyinin faizi durmadan artır. Çox təəssüf ki, kobudluq, ədəbsizlik, səsin tonunun yüksəldilməsi gündəlik həyatımızda ünsiyyət formasına çevrilib və bu hallarla müşahidə olunan aqressiya demək olar ki, sosiogen xarakter alıb.

Müasir dövrdə yeniyetmə aqressivliyinin qarşısının alınması üçün müxtəlif həlli yolları göstərilsə də yeniyetmənin fərdi-psixoloji xüsusiyyətləri, onun yaşadığı milli-etnik zəmin, ailə şəraitinin spesifikliyi bu problemin standart üsullarla həllini çətinləşdirir. Yeniyetmələrdə özünü göstərən aqressiv davranışın təzahürləri və fəsadları aradan qaldırılmazsa bu, davranış formasının asosial və deviant davranışa keçməsi ehtimalı artır və yeniyetmə əsas fəaliyyət növü olan təlim fəaliyyətindən uzaqlaşır, cəmiyyətə faydalı vətəndaş yetişdirmək vəzifəsi arxa plana keçirilir. Bütün bunlarla yanaşı yeniyetməlik yaş dövründə meydana gələn aqressiya halları yalnız qeyd olunan amillərdən qaynaqlanmır, həm də yeniyetmənin mövcud situasiyaya münasibətinin təzahürü kimi də özünü göstərə bilir.

Qeyd olunan faktlar göstərir ki, yeniyetmələrdə aqressivliyin mexanizminin, yaranma səbəblərinin öyrənilməsi və onun fəsadlarının aradan qaldırılması üçün müvafiq yol və vasitələrin tapılması müasir dövr üçün xüsusi ak-tuallıq kəsb edir. Bunun üçün hər şeydən əvvəl biz şagirdlərin psixoloji xüsusiyyətlərini və fərdi təhsil ehtiyaclarını müəyyənləşdirilməsi üçün var gücümüzü səfərbərliyə almalıyıq. Unutmayaq ki, belə uşaqların vaxtında aşkarlanması, dəstəklənməsi və inkişafının təmin edilməsi təlimin prioritet məqsədlərindəndir.

**Problemin aktuallığı**. Şagirdlərin psixoloji sağlamlığı və fərdi təhsil məsələləri hazırda ən aktual problemlərdəndir.

**Problemin yeniliyi**. Şagirdlərin psixoloji sağlamlığı və fərdi təhsil məsələləri araşdırılır.

**Problemin praktik əhəmiyyəti**. Məqalə gənc tədqiqatçılarda maraq doğuracaqdır.

**Ədəbiyyat**:

1. Abbasov, A.N. Pedaqogika: Müntəxəbat: Ali məktəblər üçün dərs vəsaiti / A.N. Abbasov, R.R. Məmmədzadə, L.A. Məmmədli. Bakı: Mütərcim, -2021. – 608 s.
2. Ağayev, Ş.A. Uşaqların fərdi-psixoloji xüsusiyyətlərinin öyrənilməsi./ Ş.A. Ağayev. -Bakı: Maarif, 2002. – 124 s.

**Redaksiyaya daxil olub**: 10.04.2026